

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 230 (21.382)

24 noyabr 2015-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 23-də ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini xanım Bridcet Brinkin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini Bridcet Brink ABŞ və Azərbaycan prezidentlərinin ikitərəfli münasibətlərimizlə bağlı apardıqları müzakirələrdən sonra Prezident İlham Əliyevlə görüşmək imkanı əldə etmələrini yüksək dəyərləndirib. Əvvəllər də Azərbaycana səfər etdiyini bildirən xanım Bridcet Brink paytaxtımızda gedən müsbət dəyişikliklərin onlarda dərin təəssürat yaratdığını deyib.

Dövlətimizin başçısı G20-nin Antalya toplantısında ABŞ Prezidenti Barak Obama ilə ikitərəfli əlaqələrimizin inkişafı ilə bağlı fikir mübadiləsi apardıqları zaman ABŞ Prezidentinin 10 il bundan əvvəl senator kimi Azərbaycana səfərini xatırladığını məmnunluqla qeyd edib. Ölkələrimizin müxtəlif sahələrdə uzun illərdir ki, uğurla əməkdaşlıq etdiyini deyən Prezident İlham Əliyev enerji və regional təhlükəsizlik, iqtisadi inkişaf və digər sahələrdə əlaqələrimizin əhəmiyyətini xüsusi vurğulayıb.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması, Azərbaycanla ABŞ arasında əlaqələrin enerji, iqtisadi şaxələndirmə, ticarət, təhsil, kənd təsərrüfatı, birgə layihələr, terrorizmə qarşı mübarizə, insan haqları və demokratiya və digər sahələrdə inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

## Naxçıvanda Yeni Azərbaycan Partiyasının yaradılmasının 23-cü ildönümü münasibətilə iməciliklər keçirilmişdir



1992-ci il noyabrın 21-də ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda yaradılan Yeni Azərbaycan Partiyası ötən müddətdə böyük yol keçmiş, ölkəmizdə əsas hərəkətverici siyasi təşkilata çevrilmişdir. Partiyanın cəmiyyətdəki mövqeyi ilbəil artır. Bu gün ölkəmizdə, eləcə də muxtar respublikada aparılan genişmiqyaslı quruculuq işləri, iqtisadiyyatın inkişafı və əhalinin rifahının yaxşılaşdırılması Yeni Azərbaycan Partiyasının proqramında nəzərdə tutulan tədbirlərin uğurlu icrası nəticəsində mümkün olmuşdur. Ötən müddətdə muxtar respublikada təbii sərvətlərimizə qayğı ilə yanaşılması və ekoloji tarazlığın qorunması istiqamətində də ardıcıl işlər görülmüşdür.

Noyabrın 21-də Naxçıvan Muxtar Respublikasında Yeni Azərbaycan Partiyasının yaranmasının 23-cü ildönümünə həsr olunmuş iməciliklər keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin kollektivləri Naxçıvan-Sədərək avtomobil yolunun kənarındakı püstə bağında keçirilən iməcilikdə iştirak etmişlər.

Ötən iməciliklər zamanı 50 hektar ərazi əkinəyararlı hala salınmış, bu günə qədər 20 minə yaxın püstə tingi əkilmişdir. İməcilik iştirakçıları ərazidə əkin işlərini davam etdirmişlər. Püstə bağının ətrafındakı qoruyucu yaşıllıq zolağına da qulluq göstərilmiş, müvafiq aqrotexniki tədbirlər və səliqə-sahman işləri aparılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov iməcilikdə iştirak etmiş, püstə bağında yeni tinglər əkmişdir.

Həmin gün muxtar respublika ərazisində iməciliklər yolu ilə 19 min 400 ədəd ağac və 5 mindən artıq bəzək kolları əkilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvanda yeni sənaye kompleksi yaradılır





Muxtar respublikada iqtisadiyyatın əsas qolu olan sənayenin inkişafı diqqət mərkəzindədir. Həyata keçirilən tədbirlər və mövcud şərait bu sahə üzrə sahibkarlığın inkişafına, iri sənaye komplekslərinin və istehsal sahələrinin yaranmasına imkan verir. Bütün bunlar isə daxili tələbatın yerli istehsal hesabına ödənilməsinə və ixrac potensialının artmasına şərait yaradır. Bu sahədə həyata keçirilən tədbirlərin davamı olaraq Kəngərli rayonunda yeni sənaye kompleksi inşa olunmuşdur.

Noyabrın 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov sənaye kompleksində görülən işlərlə maraqlanmışdır.

Məlumat verilmişdir ki, 10 hektar ərazidə inşa olunan kompleksdə son tamamlama işləri görülür. Burada əhəng, gips, məsaməli beton və alçıpan örtüklər zavodu fəaliyyət göstərəcəkdir. Ərazidə tikinti işləri başa çatdırılmış, zavodlarda müasir avadanlıqlar quraşdırılmış, istehsal prosesinin avtomatik idarəetmə sistemi yaradılmışdır. Kompleks istifadəyə verildikdən sonra muxtar respublikada müvafiq tikinti materiallarına olan tələbatın yerli istehsal hesabına ödənilməsi təmin olunacaqdır. Yerli xammal əsasında işləyəcək zavodlarda ildə 2 milyon kvadratmetr alçıpan, 40 min ton gips, 150 min kubmetr məsaməli beton və 30 min ton əhəng istehsal olunması nəzərdə tutulur. Bu da daxili tələbatın ödənilməsi ilə yanaşı, yerli inşaat materiallarının ixracına da imkan verəcəkdir.

Sənaye kompleksinin ərazisində laboratoriya və inzibati bina da inşa olunur. Həmçinin ərazidə işçilərin rahatlığı və təhlükəsizliyi nəzərə alınacaq, video-nəzarət sistemi quraşdırılacaqdır.

Ali Məclisin Sədri kompleksdə işlərin vaxtında və keyfiyyətlə başa çatdırılması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Ordubad rayonunun Gilançay kəndində yeni sosial obyektlər istifadəyə verilmişdir

Bu gün Naxçıvan Muxtar Respublikası yeni inkişaf dövrünü yaşayır. Ümummilli lider Heydər Əliyevin quruculuq xəttinin davam etdirilməsi sosial-iqtisadi inkişafı təmin etmiş, aparılan quruculuq işləri muxtar respublikanın simasını dəyişmişdir.

Bölgələrin tarazlı inkişafı, qurulan müasir infrastrukturlar kəndlə şəhər arasındakı fərqi aradan qaldırmışdır. İnsanların həyat şəraiti yüksəlmiş, məskunlaşma artmışdır. Bu tədbirlərin davamı olaraq Ordubad rayonunun Gilançay kəndində də geniş quruculuq işləri aparılmış, müasir sosial obyektlər inşa olunmuşdur.

## Gilançay kənd yolu yenidən qurulmuşdur



Müasir yol infrastrukturu hər bir yaşayış məntəqəsinin inkişafında başlıca şərtdir. İqtisadiyyatın inkişafı, sakinlərin rahat gediş-gəlişinin təmin olunması abad yollardan başlanır. Bu gün muxtar respublikanın kəndlərində müasir sosial obyektlərlə yanaşı, həm də abad yollar istifadəyə verilir. Sakinlərin rahatlığına xidmət edən bu tədbirlər çərçivəsində Gilançay kənd avtomobil yolu da yenidən qurulmuşdur.

Noyabrın 23-də avtomobil yolunun açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmiş, yolda aparılan yenidənqurma işləri ilə maraqlanmışdır.

Məlumat verilmişdir ki, kənd yolu genişləndirilərək 1700 metrlik asfalt örtük salınmışdır. Yolun üzərində yol hərəkət nişanları qoyulmuş, 20 su keçidi və beton kanal tikilmişdir. Kənddaxili yollarda da sakinlərin rahat hərəkəti təmin olunmuşdur.

## Kənd məktəbi üçün yeni bina tikilmişdir



Noyabrın 23-də Gilançay kənd tam orta məktəbinin yeni binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış tədbirində iştirak etmişdir.

Məktəbin direktoru Etibar Fərəcov çıxış edərək demişdir ki, təhsilin inkişaf etdirilməsi ölkəmizdə və muxtar respublikada insan amilinə verilən qiymətin ifadəsidir. Çünki bütün sahələrin inkişafı təhsildən, bu gün yetişən gənclikdən asılıdır. Gilançay kənd tam orta məktəbində də şagirdlərin yaxşı təhsil alması üçün hər cür şərait yaradılmışdır. Yaradılan şərait həm məktəb kollektivinin, həm də valideynlərin uzun illərdən bəri ürəklərində olan arzularının həyata keçməsi deməkdir. Etibar Fərəcov yaradılan şəraitə görə kollektiv adından minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə çıxış edərək demişdir: Bu gün Gilançay kəndi muxtar respublikanın abad yaşayış məntəqələrinin sırasına qoşulur. Kənddə yol, məktəb binası, kənd və xidmət mərkəzləri, feldşer-mama məntəqəsi tikilərək sakinlərin istifadəsinə verilir. Gilançay kəndində istifadəyə verilən yeni sosial obyektlər içərisində məktəb xüsusi yer tutur. Çünki məktəb tikintisi ölkənin gələcəyinə xidmət edir.






Ali Məclisin Sədri ümummilli liderimiz Heydər Əliyevin ***“Məktəblərdə gənclər nə qədər yaxşı, hərtərəfli hazırlansalar, müstəqil Azərbaycanın gələcəyi də bir o qədər parlaq və müvəffəqiyyətli olacaqdır”***, – fikrini xatırladaraq demişdir: Məktəbdə ölkənin gələcəyi hazırlanır. Ona görə də məktəblərdə hərtərəfli şərait yaradılmalı, müəllimlərə qayğı göstərilməlidir. Bu gün ölkəmizdə bu tədbirlər uğurla həyata keçirilir, müasir məktəb binaları tikilir, şagirdlər üçün hərtərəfli tədris şəraiti yaradılır, müəllim əməyinə yüksək qiymət verilir. Çünki gələcəyimizi hazırlayanlar müəllimlərdir. Məktəbin pedaqoji kollektivi yaradılan şəraitdən düzgün istifadə etməli, təhsilli, vətənpərvər və geniş dünyagörüşlü gənclər hazırlamalıdırlar. Hər bir gənc orta məktəbi bitirdikdən sonra mütləq bir peşə sahibi olmalıdır. Ümumtəhsil məktəblərində bu tədbirləri həyata keçirməklə ölkəmizin gələcəyi üçün yaxşı əsas yaratmış oluruq.

Qeyd olunmuşdur ki, Gilançay kənd tam orta məktəbinin nailiyyətləri vardır. Bu da onu deməyə əsas verir ki, məktəbdə müəllim-şagird münasibətləri düzgün qurulmuşdur. Ən əsası isə tələbkarlıq vardır. Ötən tədris ilində məktəbin məzunlarının ali məktəblərə qəbul olunması, onların arasında yüksək bal toplayanların olması məktəbdəki müəllim-şagird münasibətlərinin göstəricisidir.

Qazanılan nailiyyətlərə görə məktəbin kollektivinə təşəkkür edən Ali Məclisin Sədri Gilançay məktəbində bundan sonra da təhsilli və vətənpərvər gənclər yetişdiriləcəyinə əminliyini bildirmiş, məktəb binasının istifadəyə verilməsi münasibətilə müəllim və şagirdləri təbrik etmişdir.

Sonra Ali Məclisin Sədri Ordubad rayonunun ümumtəhsil məktəblərində əla qiymətlərlə oxuyan şagirdlərə kompüter dəsti hədiyyə etmiş, açılışı bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət olan məktəb binasında 3-ü elektron lövhəli olmaqla, 12 sinif otağı, kimya-biologiya və fizika laboratoriyaları, hərbi kabinə, şahmat sinfi, kompüter və müəllimlər otağı, kitabxana, bufet və idman zalı vardır. Məktəbin kompüter otağındakı kompüterlər internetə qoşulmuş, kitabxanada 2095 kitab şagirdlərin istifadəsinə verilmişdir.

Kimya-biologiya və fizika laboratoriyaları müasir əyani vasitələrlə təchiz edilmiş, fizika laboratoriyasında elektron lövhə quraşdırılmışdır. Şagirdlər laboratoriyaların imkanlarından istifadə edərək dərsləri dərindən mənimsəyəcək, bilik və təcrübələrini artıracaqlar.

Qeyd olunmuşdur ki, bu il Naxçıvan şəhərində keçirilən təhsil yarmarkasında fiziki tərbiyə, biologiya, informatika və ibtidai sinif fənləri üzrə 4 müəllim Gilançay kənd tam orta məktəbinə təyinat almışdır.

Muxtar respublikada məktəb-muzey əlaqələrinin genişləndirilməsi tədbirləri çərçivəsində distant tədrisin təşkili mühüm yer tutur. Məktəb kollektivləri tədris şəbəkəsinə qoşularaq muzeylərə virtual səyahət edir, şagirdlərə ətraflı məlumat verilir.

Məktəbin elektron lövhəli sinfində Dövlət Bayrağı Muzeyi ilə muxtar respublikanın 205 ümumtəhsil məktəbi arasında keçirilən virtual dərs izlənilmişdir.

Məktəbdə idman dərslərinin təşkilinə də ciddi diqqət yetirilir. Geniş idman zalı və məktəbin həyətində quraşdırılan açıq idman qurğuları gənclərin müxtəlif idman növləri ilə məşğul olmalarına imkan verəcəkdir.

Hərbi kabinəyə baxış zamanı gənclərin hərb sənətinə marağının artırılması və onların hərbi-vətənpərvərlik tərbiyəsinin təşkili ilə bağlı tapşırıqlar verilmişdir.

Müəllimlərlə görüşən Ali Məclisin Sədri demişdir ki, məktəbdə şagirdlərə yaxşı təhsil verilməsi üçün bütün şərait yaradılıb. Tədris şəraitinin yaxşılaşdırılması ilə yanaşı, müvafiq ixtisaslar üzrə müəllimlərin olması da dərslərin keyfiyyətli tədrisinə imkan verəcəkdir. Bu işdə müəllim tələbkarlığı və şagird çalışqanlığı əsas götürülməlidir. Müəllim və şagirdlərin qarşılıqlı səyləri nəticəsində nailiyyətlər daha da artırılmalıdır.

Müəllimlərdən Fazil Həsənov yaradılan şəraitə görə minnətdarlıq edərək demişdir ki, bu gün Azərbaycan gəncliyinin qarşısında yaxşı təhsil almaq və əsl vətəndaş kimi böyümək, müəllim kollektivinin qarşısında isə gənclərin hərtərəfli yetişməsi və vətənpərvər ruhda tərbiyə olunması kimi mühüm bir vəzifə durur. Pedaqoji kollektiv üzərinə düşən bu vəzifələri dərindən dərk edir, məktəbdə təhsilin səviyyəsinin yüksəldilməsi istiqamətində səylə çalışır.

Məktəbin həyətində də geniş abadlıq işləri görülmüş, ətrafda meyvə bağı salınmışdır.

*Ardı 3-cü səhifədə*

## Kənddə dövlət qurumları üçün müasir iş şəraiti yaradılmışdır






Noyabrın 23-də Gilançayda kənd mərkəzi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov kənd mərkəzinin açılışını etmiş, binada yaradılan şəraitlə maraqlanmışdır.

Məlumat verilmişdir ki, kənd mərkəzində rabitə evi, feldşer-mama, polis sahə və baytarlıq məntəqələri, kitabxana, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, mədəniyyət evi və 50 yerlik iclas zalı vardır. Baytarlıq məntəqəsi üçün ayrılan otaqlarda dərman vasitələri və soyuducu qoyulmuşdur. Birinci mərtəbədə yerləşən kənd kitabxanasının fondunda 4500-ə yaxın kitab vardır.

Ali Məclisin Sədri kitabxanaya oxucu cəlbinin vacibliyini qeyd etmiş, görkəmli alim və ədiblərin yaradıcılığı ilə bağlı müxtəlif tədbirlərin keçirilməsini tapşırmışdır.

Rabitə evində 384 nömrə tutumlu ATS quraşdırılmış, poçt şöbəsi istifadəyə verilmişdir. Kəndə fiber-optik kabel xəttinin çəkilməsi sürətli internetə çıxış imkanı yaradıb. Poçt şöbəsində elektron ödəmələrin aparılması və bank xidmətinin göstərilməsi təmin edilmişdir.

Binada feldşer-mama məntəqəsi üçün 3 iş otağı ayrılmışdır. Məntəqə dərman preparatları, ilkin tibbi yardım və peyvənd çantaları ilə təmin olunmuşdur.

Ali Məclisin Sədri yaradılan şəraitdən istifadə edərək insanlara lazımi tibbi xidmət göstərilməsinin vacibliyini vurğulamış, bununla bağlı müvafiq tapşırıqlar vermişdir.

Binada fərdi qazanxana quraşdırılmış, həyətdə abadlıq işləri aparılmış, ağac və gül kolları əkilmişdir.

## Xidmət mərkəzi istifadəyə verilmişdir



Gilançay kəndində aparılan kompleks quruculuq işləri məişət və ticarət xidmətlərinin də günün tələbinə uyğun təşkilini təmin etmişdir.

Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Gilançay kəndində xidmət mərkəzinin açılışını etmişdir.

Xidmət mərkəzində bərbərxana və ərzaq-sənaye malları mağazası fəaliyyət göstərir. Mağazada ərzaq məhsullarının, gündəlik tələbat və təsərrüfat mallarının satışı təşkil olunmuş, 2 nəfər işlə təmin edilmişdir.

Xidmət mərkəzi ilə tanışlıqdan sonra sakinlərlə görüş olmuşdur.

Ali Məclisin Sədri demişdir ki, Gilançay kəndində görülən işlər dövlətimizin vətəndaşlarına göstərdiyi qayğının nümunəsidir. Kənd və şəhər olmasından asılı olmayaraq, hər bir yaşayış məntəqəsində, ilk növbədə, insanların rahat yaşaması üçün şərait yaradılmalıdır. Muxtar respublikanın kəndlərində görülən işlər bu məqsədə xidmət edir. Kəndlərdə geniş quruculuq işləri aparılmaqla yanaşı, yeni texnologiyalar da tətbiq olunur, sürətli internetdən istifadə imkanları yaradılır, elektron ödəmələr aparılır, əhaliyə müasir poçt xidməti göstərilir. Bütün bunlar da kəndlə şəhər arasındakı fərqin azalmasına xidmət edir. Gilançay kəndində də bu tədbirlər görülmüş, daimi qaz, elektrik və su təchizatı yaradılmış, kənd yolları abadlaşdırılmışdır. Həyata keçirilən tədbirlər sakinlərin rahat yaşamasına, kənddə məskunlaşmanın artmasına imkan verəcəkdir.



Kənd sakini Habil Hacıyev minnətdarlıq edərək demişdir ki, ulu öndərimiz Heydər Əliyevin yolunun davam etdirilməsi şəhər və kəndlərimizi abadlığa, tərəqqiyə qovuşdurub. Ölkəmiz günbəgün güclənir. Ordubad rayonunda da bu işlər uğurla həyata keçirilir, rayonun kəndlərində hər cür şərait yaradılır. Vaxtilə Gilançay kəndinə gəlmək, burada yaşamaq çox çətin idi. Lakin bu gün hər sahədə dövlət qayğımıza qalır, rahat yaşayırıq, təsərrüfatla məşğul oluruq. İnsanı yaşadan göstərilən diqqət və qayğıdır. Bu gün kənddə müasir sosial obyektlərin istifadəyə verilməsi sakinlər üçün əvəzsiz hədiyyədir. Kəndimizdə qaz da, elektrik də, rabitə xidməti də daimidir. Yollarımız abaddır. Sakinlər öz yurd-yuvasına möhkəm bağlanıb. Çünki yaşayış üçün bütün şərait var. Artıq uşaqlarımız rahat məktəblərdə oxuyacaq, insanlarımıza müasir binalarda xidmət göstəriləcəkdir. Biz sakinlər ölkəmizin, doğma Naxçıvanımızın bu inkişaf yolunu dəstəkləyirik.

* * *

Kənddə aparılan abadlıq-quruculuq tədbirləri çərçivəsində 350 metr fiber-optik, 1225 metr rabitə və 500 metr yeni elektrik xətləri çəkilmişdir. Kəndin təbii qaz təchizatı da yaxşılaşdırılmış, 827 metr qaz xətti çəkilmişdir.

## Gülüstan türbəsi bərpa olunur

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Gülüstan türbəsinin bərpası və tədqiq olunması haqqında" 2015-ci il 7 oktyabr tarixli Sərəncamına uyğun olaraq, Culfa rayonunun Gülüstan kəndi yaxınlığında yerləşən dünya əhəmiyyətli Gülüstan türbəsində bərpa işləri aparılır.

Noyabrın 23-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Gülüstan türbəsində bərpa işlərinin gedişi ilə maraqlanmışdır.

Məlumat verilmişdir ki, on ikinci əsr Azərbaycan xatirə memarlığının ən dəyərli nümunələrindən olan və qülləvari türbələr qrupuna daxil edilən abidə sərdabə, gövdə və üst piramidal örtükdən ibarətdir. Abidənin sərdabəsi yerüstü hissədə yerləşir. Türbənin səthi oyma həndəsi ornamentlərlə və dekorativ tağlarla çərçivələnmişdir.

Türbədə bərpa işlərinin elmi əsaslarla aparılması məqsədilə Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin əməkdaşlarından ibarət "Gülüstan türbəsi" tədqiqat qrupu yaradılmışdır. Hazırda bərpa işləri elmi əsaslarla aparılır, Əcəmi Naxçıvani memarlıq məktəbinin yadigarı olan abidənin tarixi görkəmi olduğu kimi qorunub saxlanılır. Bu günədək türbənin fasadı və üst örtüyü bərpa olunmuşdur.

Ali Məclisin Sədri Gülüstan türbəsində bərpa işlərinin davam etdirilməsi, abidənin ətrafının abadlaşdırılması və ziyarətçilər üçün şəraitin yaradılması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin mətbuat xidməti**



## Gənc əsgərlər Vətənə sədaqət andı içiblər

***Noyabrın 22-də Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayında gənc əsgərlərin andiçmə mərasimi keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himninin sədaları altında üçrəngli bayrağımız meydana gətirilib.

Sonra gənc əsgərlər vətən qarşısında öz borclarını layiqincə yerinə yetirəcəklərinə and içiblər.

Andiçmə başa çatdıqdan sonra Mülki Müdafiə Alayının komandiri, polkovnik İspəndiyar Əhmədov çıxış edərək hərbi andın əhəmiyyətindən danışıb. Qeyd olunub ki,



hərbi and içən əsgər Azərbaycan Respublikasının mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini qoruyacağını, bundan ötrü qanını və canını əsirgəməyəcəyini təntənəli surətdə vəd edir. Bu müqəddəs anda sadiq qalmaq hər bir əsgər üçün şərəf, namus və vicdan məsələsidir.

Mərasimdə çıxış edən baş leytenant Röyal Quliyev, leytenant Teymur Əsgərov, Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatının Naxçıvan Şəhər Şöbəsinin sədri Zahid Cəfərov, Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin əməkdaşı Elşən Rəfiyev gənc əsgərləri bu əhəmiyyətli gün münasibətilə təbrik edib, onlara gələcək xidmətlərində uğurlar arzulayıblar.

Valideynlər adından çıxış edən Çingiz Mustafayev bu günün hər bir valideyndə qürur hissi doğurduğunu deyib, bütün valideynlərin vətənin müdafiəçiləri olan övladları ilə fəxr etdiyini bildirib.

Gənc əsgərlər adından çıxış edən İlkin Mustafayev və Orxan Əlizadə nümunəvi xidmətləri ilə hərbi hissənin adını daim yüksək tutacaqlarını, baş verə biləcək fövqəladə hallar zamanı əllərindən gələni əsirgəməyəcəklərini bildiriblər.

Naxçıvan Muxtar Respublikası fövqəladə hallar nazirinin müavini, general-mayor Hikmət Kərimov Mülki Müdafiə Alayında xidmət üçün yaradılan hərtərəfli şəraitdən danışıb, gənc əsgərlərin qarşıdakı dövrdə Vətənə sədaqətlə və böyük ruh yüksəkliyi ilə xidmət edəcəklərinə əminliyini bildirib.

Sonda alayın şəxsi heyəti hərbi marşın müşayiəti ilə tribuna önündən keçib.

**Xəbərlər şöbəsi**

## "Kitabi-Dədə Qorqud"un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinə həsr edilmiş tədbir keçirilib

***"Naxçıvan" Universitetində "Kitabi-Dədə Qorqud"un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinə həsr edilmiş tədbir keçirilmişdir. Tədbir başlamazdan əvvəl "Dədə Qorqud" bədii filmindən bir parça göstərilmişdir.***

Tədbiri giriş sözü ilə universitetin rektoru, professor İsmayıl Əliyev açaraq dastanın yaranma tarixi, onun ilk dəfə elmə məlum olması, adının əbədiləşdirilməsi, dünya ictimaiyyətinə çatdırılması, Naxçıvanla bağlılığı və gənc nəslin milli-mənəvi tərbiyəsində rolundan danışmışdır.

Tədbirdə Azərbaycan dili və ədəbiyyat kafedrasının professoru Sədaqət Həsənovanın "Dədə Qorqudun söz dünyası", Təbiət elmləri kafedrasının dosenti Nazim Bababəylinin "Kitabi-Dədə Qorqud dastanında Naxçıvan toponimi", Azərbaycan dili və ədəbiyyat kafedrasının müəllimi Təranə Qəbulovanın "Kitabi-Dədə Qorqud" dastanı milli-mənəvi sərvətimizdir", Azərbaycan dili və ədəbiyyat müəllimliyi ixtisası üzrə IV kurs tələbələri Nərmin Mərdanlının "Kitabi-Dədə Qorqud" dastanında qadın surətləri" və Ruqiyyə Nəcəfovanın "Kitabi-Dədə Qorqud Türk dünyasının ən qədim yazılı abidələrindən biridir", İnformatika müəllimliyi ixtisası üzrə III kurs tələbəsi Gülay Əliyevanın "Kitabi-Dədə Qorqud" dastanında Qaraca Çoban Azərbaycan ədəbiyyatında ilk zəhmətkeş insan surətidir" mövzularında çıxışları olmuşdur.

Bildirilmişdir ki, hər bir xalqın mənəviyyatını, adət-ənənələrini, keçmişini, həyat tərzini, özəlliklərini təcəssüm etdirən göstəriciləri vardır. Bu baxımdan xalqımız daha zəngin, daha çoxcəhətli qaynaqlara malikdir. Bu mənbələr içərisində "Kitabi-Dədə Qorqud" dastanının öz yeri, öz çəkisi vardır. "Kitabi-Dədə Qorqud" dastanı Azərbaycan xalqının tarixidir. Bu dastan Azərbaycan xalqının tarixi keçmişini şifahi xalq ədəbiyyatı əsasında əks etdirən ölməz bir yazılı abidədir.

Vurğulanmışdır ki, xalqımızın ümummilli lideri Heydər Əliyev dastanın dünya miqyasında təbliği və Azərbaycanda adının əbədiləşdirilməsi, əks etdirdiyi vətənpərvərlik ideyalarının genişləndirilməsi üçün "Kitabi-Dədə Qorqud"un 1300 illiyi haqqında 20 aprel 1997-ci ildə Fərman imzalamışdır. Həmin tarixi fərmandan sonra Dədə Qorqudun adının Azərbaycanda, eləcə də Naxçıvan Muxtar Respublikasında əbədiləşdirilməsi sahəsində bir sıra tədbirlər həyata keçirilmişdir. Ulu öndərin layiqli davamçısı, ölkə başçısı cənab İlham Əliyevin "Kitabi-Dədə Qorqud"un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinin qeyd edilməsi haqqında" 20 fevral 2015-ci il tarixli Sərəncamı bu böyük Azərbaycançılıq abidəsinə verilən dəyərin bariz nümunəsidir.

**Nuray ƏSGƏROVA**

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 21 dekabr 2015-ci il tarixdə açıq hərraca çıxarılacaq əmlaklar haqqında məlumat

| Sıra №-si | Hərraca çıxarılacaq əmlak | Əmlakın hüquqi ünvanı | Əmlakın ilkin satış qiyməti (manat) | Əmlakın axırıncı satış qiyməti (manat) | İlkin satış qiymətinin 5 faiz həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri, N.Tusi küçəsində yerləşən tikintialtı sahə 345,2 kv.m, ümumi 427,5 kv.m, əsas sahə 225,2 kv.m, köməkçi sahə 202,3 kv.m olan $5^{B}$ nömrəli qeyri-yaşayış binası (Naxçıvan Nəqliyyat Ekspedisiyası Müəssisəsi) | Naxçıvan şəhəri, N.Tusi küçəsi $5^{B}$ | 100.000 | 100.000 | 5.000 |
| 2. | Şahbuz rayonu, Ayrınc kəndində icarəsində olan 0,46 ha torpaq sahəsində yerləşən 2 girişli, 482,56 kv.m ümumi, 482,56 kv.m əsas sahədən ibarət qeyri-yaşayış binası (tövlə) | Şahbuz rayonu, Ayrınc kəndi | 96.000 | 96.000 | 4.800 |
| 3. | Naxçıvan şəhəri, "İstiqlal" küçəsində istifadə olunan torpaq sahəsində yerləşən 94 nömrəli, 3 mərtəbəli binanın birinci girişində, birinci mərtəbəsində 42,37 kv.m ümumi, 26,75 kv.m yaşayış sahəsindən ibarət 2 otaqlı, 1 nömrəli mənzil | Naxçıvan şəhəri, "İstiqlal" küçəsi | 70.000 | 70.000 | 3.500 |
| 4. | Naxçıvan şəhəri, Əcəmi Naxçıvani məhəlləsində istifadə olunan 0,096 ha torpaq sahəsində yerləşən 4 nömrəli, 5 mərtəbəli binanın üçüncü girişində 1 otaqlı, ümumi sahəsi 14,82 kv.m olan $24^{A}$ nömrəli mənzil | Naxçıvan şəhəri, Əcəmi Naxçıvani məhəlləsi | 15.000 | 15.000 | 750 |
| 5. | Naxçıvan şəhəri, M.S.Ordubadi küçəsi, döngə 1-də mülkiyyətində olan 0,0674 ha torpaq sahəsində yerləşən 1 mərtəbəli, 2 otaqlı, 56,3 kv.m yaşayış, 21,3 kv.m qeyri-yaşayış, 13,4 kv.m köməkçi sahədən ibarət 5 nömrəli fərdi yaşayış evi | Naxçıvan şəhəri, M.S.Ordubadi küçəsi | 75.000 | 75.000 | 3.750 |
| 6. | Naxçıvan şəhəri, N.Nərimanov küçəsində mülkiyyətində olan 0,028 ha torpaq sahəsində yerləşən 1-(2) mərtəbəli, 5 otaqlı, 78,74 kv.m yaşayış, 19,01 kv.m qeyri-yaşayış, 59,64 kv.m köməkçi sahədən ibarət 11 nömrəli fərdi yaşayış evi | Naxçıvan şəhəri, N.Nərimanov küçəsi | 45.000 | 45.000 | 2.250 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakların ilkin satış qiymətinin 5 % məbləğində beh "Kapital Bank" ASC Şərur rayon filialında olan AZ60AIIB32051019443360201133 nömrəli hesaba və "Naxçıvan-Kredit" BOKT MMC-də olan AZ11NABZ12350600000000001944 nömrəli hesaba 16 dekabr 2015-ci il tarixədək ödənməlidir.

Hərraclarda iştiraka görə hərrac iştirakçılarından qanunvericilikdə müəyyən edilmiş iştirak haqqı Auksion Mərkəzinin Maliyyə Nazirliyindəki №AZ 21 NABZ12360100000000005944 nömrəli hesabına köçürülür.

Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Heydər Əliyev prospekti 6) qəbul olunacaqdır. Məlumat dərc olunduğu gündən auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan müəssisənin sənədləri ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün komissiyaya aşağıdakı sənədlər təqdim olunur:

*- Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;*

*- kommersiya banklarına ödəniləcək behin qəbzi;*

*-hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*

*- fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 21 dekabr 2015-ci il tarixdə, saat $10^{00}$-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

***Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz***
***Əlaqə telefonu: 545-01-38***



***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Basketbol Federasiyasının təşkilatçılığı ilə məşqçi-müəllimlər və idmançılar üçün keçirilən seminar başa çatıb. "Naxçıvan" Universitetinin idman zalında baş tutan seminarda gənc basketbolçulardan ibarət Azərbaycan yığmasının baş məşqçisi, basketbol üzrə kişilərdən ibarət Azərbaycan millisinin keçmiş kapitanı Tahir Baxşıyev son illər bu idman növünün dəyişən və tətbiq olunan yeni qaydaları barədə məşqçi-müəllimləri və idmançıları məlumatlandırıb. Seminardan sonra Tahir Baxşıyevlə görüşüb həmsöhbət olduq:***

## Tahir Baxşıyev: Naxçıvanda yetişən istedadlı basketbolçular Azərbaycan yığmasında oynayacaq səviyyədədir

***– Naxçıvanda basketbolun inkişafı barədə nə deyə bilərsiniz?***

– Peşəkar idmançıların yetişməsi üçün, ilk növbədə, basketbolun inkişafını stimullaşdıran lazımi şəraitin yaradılması və bu işə təcrübəli məşqçilərin cəlb edilməsi vacibdir. Naxçıvanda bu istiqamətdə çox işlər görülüb. Belə ki, Naxçıvan Muxtar Respublikası Basketbol Federasiyası, Gənclər və İdman Nazirliyi istedadlı yeniyetmələri üzə çıxarmaq üçün çempionat təşkil edib. Bu həm də basketbola maraq göstərən istedadlı gənclərin oyun təcrübəsini artırmasında müstəsna rol oynayır. Keçirdiyimiz seminarda məşqçi-müəllimlərə daha çox yeni qaydalar haqqında məlumat verildi. Həmçinin idmançılara oyun təcrübəsini artırmaq, oyun zamanı müəyyən qaydalara riayət edilməsi və oyuna psixoloji hazırlıq barədə məsləhətlərimizi verdik.

***– Məlumdur ki, hazırda basketbol üzrə muxtar respublika çempionatı keçirilir. Gənclərdən ibarət yığmanın baş məşqçisi olaraq oyunları izləmək planınız varmı?***

– Bu seminar, səhv etmirəmsə, ilk dəfə idi ki, təşkil olunurdu. Mütəmadi olaraq mən, həmçinin yığmanın digər məşqçiləri muxtar respublikada basketbol sahəsində görülən işlərlə maraqlanırıq. Basketbol Federasiyasının nümayəndələri ilə tez-tez bu haqda söhbətlərimiz olur, keçirilən oyunlar barədə məlumat alıram. Təbii ki, qarşıdakı aylarda oyunları izləyəcək və istedadlı gəncləri yığmaya dəvət edəcəyik.

***– Adətən, seminarlar məşqçi-müəllimlər və idmançılar üçün təşkil edilir. Hakimlərlə bağlı seminarların təşkilinə ehtiyac varmı?***

– Məşqçi-müəllimlər və idmançılar üçün keçirilən seminarlardan sonra federasiya rəsmiləri ilə bu barədə söhbətimiz olub. Əgər çempionat keçirilirsə, hakimlər üçün də bunu təşkil etmək mütləqdir. Biz Naxçıvanda bu idman növünün inkişafı üçün əlimizdən gələni əsirgəməyəcəyik.

***– Bir məşqçi kimi muxtar respublikada basketbolun inkişafı və bu sahədə görülən işlər sizi qane etdimi?***

– Ümumiyyətlə, basketbolun kütləvi hal alması üçün şəraitin olması vacibdir ki, mən söhbətimizin əvvəlində də bunu dedim. Bir daha demək istəyirəm ki, Naxçıvanda bu istiqamətdə məqsədyönlü addımlar atılıb. Deyərdim ki, tezliklə basketbol muxtar respublikada ən çox sevilən idman növü olacaq.

***– Uzun illər yığmanın kapitanı olan və hazırda gənclərlə işləyən Tahir Baxşıyevin Naxçıvanda basketbolla məşğul olan gənclərə məsləhəti nə olardı?***

– Basketbol çox mürəkkəb oyundur. Bu oyunda həm ağıl, həm də fiziki hazırlıq eyni dərəcədə vacibdir. Digər tərəfdən oyunda öz hislərini cilovlamağı da bacarmalısan. Amma bu oyunu hissiz, emosiyasız oynamaq da olmaz. Basketbol elə bir oyundur ki, onunla məşğul olan şəxs hərtərəfli inkişaf edir. Üstəlik, bu idman növü ilə məşğul olanda boyun artması, qəddi-qamətin düzəlməsi daha da tezləşir. Naxçıvanda istedadlı uşaqlar çoxluq təşkil edir, onlar bu sahənin peşəkarı olmaq istəyirlərsə, o zaman günün 4-6 saatını məşq etməlidirlər.

**✍ Ceyhun MƏMMƏDOV**


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 888